# Bayramın mübarək, «Qəbələ»!

***Qəzetinizdə Nadir Atakişiyevin imzası ilə dərc edilən "Qəbələ" qəzeti–Qəbələnin salnaməsi " adlı yazını oxudum. Xəyal bir anda məni qanadlarına alıb, çox-çox uzaqlara, 53 il əvvələ, ömrümün cavanlıq illərinə apardı. "Qəbələ" qəzetinin redaksiyasında işlədiyim illər yadıma düşdü.***

***İndi ömrümün 84-cü payızını yaşayıram. Hər şey mənə yuxu kimi, göylər qədər uzaq və əlçatmaz görünür.***

***Belə qərara gəldim ki, Milli Mətbuat və Jurnalistika Günü ilə əlaqədar olaraq bəzi xatirələrimi oxucularla bölüşüm.***

...1966-cı ildə respublikamızın bəzi rayonlarında ayrıca qəzet redaksiyası yox idi. Neçə illər idi ki, rayonumuzun oxucuları Göyçayda nəşr olunan "Yeni həyat" qəzetinə abunə yazılırdılar. Həmin qəzetdə rayonumuzun ictimai həyatına aid yazılar da verilirdi.

Həmin ilin may ayında isə Qəbələdə (əvvəlki Qutqaşında) yenidən "Qalibiyyət" adı ilə qəzet fəaliyyətə başladı. Məni də bu qəzetin redaksiyasında ədəbi işçi vəzivəsinə qəbul etdilər. Qəzetə redaktor təyin edilən Ramazan İsmayılov əvvəllər də rayonumuzda çıxan "Mübariz" adlı qəzetin redaktoru olmuşdu.

Qəzetin yerləşdiyi binanın yuxarı hissəsi redaksiyaya, aşağı hissəsi isə mətbəəyə aid idi.

May ayının birinci həftəsində "Qalibiyyət" qəzetinin ilk nömrəsi çapdan çıxdı. O vaxtlar qəzetin materialları mətbəədə əl ilə yığıldığından Aşaxatın Kərimova, Əhməd Şöyübov (onlar əvvəllər də "Mübariz" qəzetində mürəttib işləmişdilər), Firuzə Yusifova, Gülmayə Hüseynova, Xədicə Məmmədşahova, Əzizə Əsədova, Rima İsrayılova və Sabirə Kərimova redaksiyada mürəttib işləyirdilər. Onların bəziləri Şəkidəki texniki-peşə məktəbində mürəttib peşəsinə yiyələnmişdilər.

Sonralar mətbəyə "Linotip" adlanan bir ədəd sətiryazan maşın gətirildi. Onu bu sahədə texniki-peşə məktəbini bitirən İlham adlı cavan bir oğlan idarə edirdi. Libadə Kərimova adlı bir qız da onunla işləyirdi. Daha sonra isə Rais Rəşidov "Linotip"də çalışmağa başladı. İlham

**(Ardı 6-cı səhifədə).**

# Məzun günü keçirilmişdir

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində keçirilən Məzun gününə Azərbaycan Respublikasının dövlət himninin səslənməsi ilə başlanılmışdır.




Tədbirdə mərkəzin direktoru Azad Məmmədov son illər ərzində ölkəmizdə peşə təhsilinə göstərilən dövlət qayğısı, eyni zamanda peşə təhsilində qazanılan uğurlar barədə məlumat vermişdir. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda peşə təhsilinin inkişaf etdirilməsi istiqamətində həyata keçirilən layihələrdən söz açmış, görülən işləri diqqətə çatdırmışdır.

Tədbir qonaqların şıxışları ilə davam etdirilmişdir. Peşə Təhsili üzrə Dövlət Agentliyinin nümayəndəsi Zamin Bədirxanov, Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin bölgə üzrə koordinatoru Yulia Bazhenova, Qəbələ Turizm və Otelçilik üzrə Tədris Mərkəzinin direktoru Eyvaz Kazımov, rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova və digər tədbir iştirakçıları məzunları təbrik etmiş, onlara öz ürək sözlərini bildirmişlər.

Sonra 2018-2019-cu tədris ilində fərqlənmiş müəllim və məzunlar mərkəzin Fəxri fərmanları ilə təltif olunmuşlar.

Məzun günü bədii hissə ilə davam etdirilmişdir.

**Səhrab UMUYEV,**
**"Qəbələ"**

# Futzal üzrə treninq

Oğlanlar, qızlar, həvəskarlar və futzal liqalarındakı komandaların rəhbərləri və onlayn qeydiyyatını aparacaq şəxslərlə görüşlər davam edir.



2019-2020-ci il mövsümünə hazırlıqla bağlı növbəti treninq Qəbələdə keçirilib.

Treninqdə yeni klubların yaradılması, istifadəçi adı və parolunun düzəldilməsi, oyunçu qeydiyyatının aparılması, yenilənməsi, transfer, icarə prosesləri, yeni lisenziya kartları haqda məlumat və sair haqda geniş təqdimat olub. Treninqdə, həmçinin qeydiyyat sisteminin əsasnaməsi, qeydiyyatın başlama və son tarixləri, dəyişən qeydiyyat qaydaları barədə məlumatlar verilib.

**"Qəbələ"**

# Ekspedisiya üçün baza Tüntül kəndi seçilib

***AMEA-nın akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun geomorfologiya və təbii risklər şöbəsinin əməkdaşlarından ibarət "Tufandağ ekogeomorfoloji dəstəsi" Böyük Qafqazın cənub yamacında çöl tədqiqatlarında olub. Ekspedisiyaya coğrafiya üzrə fəlsəfə doktoru Rəfail Abdullayev rəhbərlik edib.***



Baza kimi Tüntül kəndini seçən ekspedisiya üç əsas və bir vizual istiqamətdə tədqiqat aparıb: Tüntül-Duruca-Yatmış gözəl-Peyğəmbərbulaq-Rüstəmbaz-Tufan gölləri (3863 m), Tüntül-Sincan-Xaçmaz-Filfilli-Kaytdağ-Çaldaş (3428 m), Tüntül-Qumlax-Xalxal-Qasdağ (2728 m) və Nialdağ, Lahıc və Dəmirçilər istiqamətləri.

Mütəxəssislər ekspedisiya müddətində relyefə antropogen təsirin artması ilə əlaqədar təbii tarazlığın pozulması, ekzogen proseslərin sürətlənməsi, relyefin müxtəlif dərəcəli dəyişikliklərə məruz qalması, yay otlaq sahələrinin sürətli deqradasiyası, buzlaqların aşağı sərhədlərinin geri çəkilməsi nəticəsində yeni sel ocaqlarının açılması və sayının artması, mövcud olanların isə xeyli genişlənməsi hallarını müşahidə ediblər.

**"Qəbələ"**

# Tələbələrin təcrübi bilikləri qiymətləndirilib

Qəbələdəki pilot peşə təhsili müəssisələrində tələbələrin təlim və təcrübə zamanı əldə etdikləri biliklərin qiymətləndirilməsi aparılıb.

İmtahanda qiymətləndirmə Peşə Təhsili üzrə Dövlət Agentliyinin nümayəndəsi, "Qəbələ, Qax və İsmayıllı rayonlarında kənd təsərrüfatı və turizm sahəsində duala bənzər peşə təhsili və təlimi pilotlarının yaradılması" layihəsinin əməkdaşları və əməkdaşlığa cəlb olunmuş müəssisələrin rəhbərləri tərəfindən aparılıb.

İmtahan Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin heyvandarlıq mütəxəssisi ixtisasının tələbələri üçün "Gilan Dairy Farms" MMC südçülük kompleksində, turizm və otelçilik üzrə peşə tədris mərkəzinin şirniyyatçı, ofisiant, barmen və bufetçi ixtisasının tələbələri üçün isə "Qafqaz Tufandağ Hotel" və "Qafqaz Resort Hotel"də təşkil olunub.




**Səfa ASLANOV**
**"Qəbələ"**

# Yolun yenidən qurulması yekunlaşır

Rayonumuzda 19 kilometrlik Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolunun yenidən qurulması işləri yekunlaşmaq üzrədir.

IV texniki dərəcəyə uyğun yenidən qurulan yolun hərəkət hissəsinin eni 6 metr, hər bir istiqamət üzrə çiyin hissələrin eni 2 metr olmaqla yol yatağının eni 10 metr təşkil edir. Layihəyə uyğun olaraq, yolun alt və üst layının tikintisi işləri görülüb.

Həmçinin layihə çərçivəsində Zalamçay üzərində yerləşən və 42 metrlik avtomobil körpüsü qəzalı vəziyyətə düşdüyü üçün əvəzinə 4 aşırımlı yeni körpü inşa edilir.

Sonuncu mərhələdə zəruri olan yerlərdə 8 avtobus dayanacağının inşa edilməsi, hərəkətin normal təşkili üçün yol nişanlarının, siqnal dirəklərinin və məsafə göstəricilərinin quraşdırılması, yol-cizgi və yolgöstərici xətlərinin, həmçinin piyada zolaqlarının çəkilməsi nəzərdə tutulur.

Başlangıcını respublika əhəmiyyətli Ağdaş-Zarağan avtomobil yolundan götürən bu yol 8 mindən çox əhalinin yaşadığı 11 yaşayış məntəqəsini əhatə edir. Yolun yenidən qurulması gediş-gəlişin rahatlaşmasına, əhalinin yetişdirdiyi kənd təsərrüfatı məhsullarının tez bir zamanda bazarlara çatdırılmasını təmin edəcək.

**"Qəbələ"**